

## Mirzə MƏMMƏDOV

Məmmədov Mirzə Xanlar oğlu 20 avqust 1948-ci ildə Tərtər rayonunun Səhləbad kəndində anadan olub. Bakı mədəni-maarif texnikumunu və Azərbaycan Dövlət İncəsənət İnstitutunu (ADMİU) bitirib.

1967-ci ildən rayon mədəniyyət şöbəsində müxtəlif vəzifələrdə çalışıb. 1995-ci ildən şöbənin inspektorudur.

### Vallah

**A qoca dünyadan gileylənənlər,**
**Dünya gözəlliklə doludur, vallah.**
**İnamsız, gümansız ömür sürənlər,**
**Dünya gözəlliklə doludur, vallah.**

**İnsanın iblisi, mələyi də var,**
**Əməlin doğrusu, kələyi də var.**
**Ömrün zaman adlı ələyi də var...**
**Dünya gözəlliklə doludur, vallah.**

**Göz yumma dövranın bu gərdişinə,**
**Əl atma tanrının nizam işinə.**
**Döz, Mirzə, bəxtinin keşməkeşinə,**
**Dünya gözəlliklə doludur, vallah.**

### Dünya mərdlər dünyasıdır

*Ərənlər çox gözəl deyib:*
*«Dünya mərdlər dünyasıdır».*
*İnsanlarda gəzmə eyib,*
*Dünya mərdlər dünyasıdır.*

*Yaxşılıq et, adın qalar,*
*Yaşamağa üzün olar.*
*Nəyə lazım əyri yollar?*
*Dünya mərdlər dünyasıdır.*

*Səxavət olsun bəzəyin,*
*Hədər getməsin əməyin.*
*Yaradan olsun köməyin,*
*Dünya mərdlər dünyasıdır.*

*Gərəkli ol hər insana,*
*Yaxın dostu darda sına.*
*Quyu qazma başqasına,*
*Dünya mərdlər dünyasıdır.*

*İnsanların qeydinə qal,*
*Süfrən, ruzin olsun halal.*
*Mirzəni də yadına sal,*
*Dünya mərdlər dünyasıdır.*

### Deyilmi

***Məsləhət görürsən unudum səni,***
***Bu ağrını çəkən ürək deyilmi?***
***Deyirsən heç zaman görməyim səni,***
***Bu görüş qəlbimə kömək deyilmi?***

***Səni şən görəndə açılır qəlbim,***
***Kədərli görəndə bağlanır dilim.***
***Söylə sən də məni unutsan gülüm,***
***Bəs bu mənim üçün ölmək deyilmi?***

***Əzəldən vurğunun olmuşam sənin,***
***Həmişə qəlbini duymuşam sənin,***
***Yolunda boynumu burmuşam sənin,***
***Bəs bu qəlbdən gələn dilək deyilmi?***

## İstərdim

*Yazın gözlərindən axan yağışı*
*Doldurub bir cama içmək istərəm.*
*Bağrımı qan edən çatma qaşları*
*Basıban bağrıma öpmək istərəm.*

*Süzgün baxışına dözmək çətindi,*
*Ondan ayrı düşmək qiyamətimdi,*
*Eşqini yaşatmaq dəyanətimdi,*
*Bu halı onda da görmək istərəm.*

*Mənə əzab verib öyünsən də sən,*
*Xətrinə dəyəndə küssən də məndən.*
*Bircə diləyim var dünyada səndən,*
*Könül versən səni sevmək istərəm.*

*Mənim sözlərimdən incimə gülüm,*
*Sənsiz də səninlə danışır dilim.*
*Bilsəm ki, əlindən üzülür əlim,*
*Həmin gün dünyadan köçmək istərəm.*

## Gözəlim

**Hərdən mehribanlıq göstərib mənə**
**Qəlbimi odlara yaxma, gözəlim.**
**Elə bil ürəyim borcludur sənə**
**Bu borcu başıma qaxma, gözəlim.**

**Sən küssən ürəyim dözməz hicrana,**
**Mən küssəm üzümü tutum hayana?**
**İnsaf et, ay gülüm, qıyma bu cana,**
**Su kimi hər yana axma, gözəlim.**

**Sənlə danışanda dincəlir ürək,**
**Sənə qurban edəm bu canı gərək.**
**Birlikdə danışıb, birlikdə gülək,**
**Kənar böhtanlara baxma, gözəlim.**

**Sənə vurğun olub əzəldən qəlbim**
**Çəkiləsi deyil inan bu dərdim**
**Əbədi səninlə olmaq istərdim**
**Eşq oxun qəlbimə taxma, gözəlim.**

## O gözəlin sevgisi

*O gözəlin sevgisi*
*Məni məcnun eyləmiş.*
*Şirin-şirin gülməsi*
*Məni məftun eyləmiş.*

*O gözəlin sevgisi*
*Sönməz ocaq tək yanır.*
*Hərdən küsüb getməsi*
*Ürəyimə od salır.*

*O gözəlin sevgisi*
*Qəlbimə hakim olmuş.*
*Onun məsum çöhrəsi*
*Ürəyimdə yurd salmış.*

*O gözəlin sevgisi*
*Bənzər qocaman dağa.*
*Onun hər titrək səsi*
*Çəkir hissimi dara.*

*O gözəlin sevgisi*
*Mənim səadətimdi.*
*Ondan ayrı yaşamaq*
*Olmaz, bilin çətindi.*

**Tərtər rayonu,**
**Səhləbad kəndi**